# PERİFERİYA ÖLKƏLƏRİNİN İQTİSADİ İNTEQRASİYANIN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ (AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ TİMSALINDA)

***Rövşən QULİYEV***
*(Xəzər Universitəsi)*

**1.1. Birgə inkişaf modeli.** Ölkələrarası iqtisadi inteqrasiyanın yaranma məqsədlərinə nəzər salaq. Müasir ölkələrin iqtisadi, xüsusən də siyasi-iqtisadi və xüsusən də siyasi-iqtisadi-hərbi birliklərinin yaranmasının əsas məqsədləri aşağıdakılardır.

1. İlk növbədə istehsal və istehlak amillərindən qarşılıqlı əlverişli şəkildə istifadə.
2. Regional və qlobal problemlərin həlli.

Beynəlxalq iqtisadi münasibətlərin əsasında duran bu təbii məqsədlər aşağıdakı prinsip kimi ifadə oluna bilər.

***Koalisiya və ya birgə inkişaf prinsipi.*** Ölkələrarası iqtisadi birliklərin əsas məqsədi üzv ölkələrin daxili sosial-iqtisadi problemlərinin effektiv həllinin təmin olunmasıdır.

Belə birliklərin aşağıda şərh olunan digər məqsədlərini isə aşağıdakı postulatda birləşdirmək olar.

***Rəqabət üstünlüyünün təminatı prinsipi.*** İqtisadi subyektlər, o cümlədən dövlətlər rəqabət mübarizəsində bütün mümkün vasitələrdən istifadə edirlər. Təəssüfedici hal budur ki, bu vasitələr yalnız özünüinkişaf və özünütəkmilləşdirmə ilə məhdudlaşmır.

Bu prinsip iki fakta əsaslanır:

- Heç bir sistem ətraf mühitin resurslarından istifadə etmədən inkişaf edə bilməz [1].
- Əksər insanların təbiətinə komforta can atma, özünü digər adamlarla müqayisə etmə, özünü təsbit etmə, paxıllıq və s. hisslər xasdır.

Bu iki faktın nəticəsidir ki, iqtisadi subyektlərin mühüm fəaliyyət istiqaməti *rəqiblərin inkişafını əngəlləməkdir*. Biz bu fəaliyyəti *iqtisadi təcavüz* adlandıracayıq.

Rəqabət üstünlüyünün təminatı prinsipində ifadə olunan “mümkün vasitələr” bir tərəfdən hüquqi qanunvericiliklə, digər tərəfdənsə etik normalarla çərçivələnir. Lakin təcrübə göstərir ki, qəbul edilən qanunlar “güclülər”, o cümlədən güclü dövlətlər tərəfindən pozulur, etik normalar isə “təsərrüfatın” miqyası böyüdükcə asanlıqla heçə çevrilir. Bu, dövlətlərarası münasibətlərdə, daha qabarıq təzahür edir: dövlətlərin rəhbərləri öz vətəndaşlarının rəğbətini qazanmaq üçün digər xalqlara münasibətdə mənəvi prinsipləri asanlıqla tapdalayırlar.

Beynəlxalq səviyyədə buna parlaq misal inkişaf etmiş ölkələrin digər ölkələrə münasibətidir. *Yuxarıda qeyd edildiyi kimi, bu dövlətlər müəyyən mərhələdə digər xalqları hərbi yolla əsarət altına alıb, aşkar şəkildə istismar etməklə eyni zamanda onların iqtisadi, elmi-texniki inkişafını əngəlləmiş, hazırda isə bu siyasətin davam etdirilməsi üçün psevdoiqtisadi, yeri gələndə isə yenə də hərbi üsullara əl atırlar.

Hətta iş o yerə çatıb ki, UNCTAD tərəfindən təklif olunan və inkişaf etməkdə olan ölkələrin qabaqcıl ölkələrə ixracında güzəştləri nəzərdə tutan xüsusi preferensiyalar sistemi AB tərəfindən daxili istehsalçılar üçün təhdidsiz olan tropik və subtropik məhsullara tətbiq olunmaqdadır.

Beləliklə, müasir ölkələrin iqtisadi inteqrasiyalarının kökündə yuxarıda qeyd olunanlarla yanaşı daha iki məqsəd də durur:

3. İqtisadi təcavüzdən qorunma. İnteqrasiya birləşmiş resursların üç istiqamətdə effektiv olaraq səfərbərliyə alınmasına imkan verir:

- daxili bazarın qorunması;
- xarici bazarlar uğrunda rəqabət mübarizəsi;
- alyansa üzv olan ölkələrdə tərəqqini ləngitməyə çalışan qüvvələrə qarşı mübarizə.

Burada bir mühüm məqam da vardır. Hər hansı bir zəif ölkə alyansa üzv olmaqla bu alyansa daxil olan (əksər hallarda isə alyansın yaradıcısı olan) güclü ölkə(lər)in təcavüzündən qorunmaq məqsədi güdürlər və bəzi hallarda bu məqsəd dominantlıq təşkil edir. Bu hallarda faktiki olaraq icbari inteqrasiya baş verir. Lakin həyat göstərir ki, **bu zaman inkişafın əngəllənməsi fəaliyyəti aradan qaldırılmır, bir qədər zəifləyir**.

Və nəhayət. Inteqrasiyanın daha bir səbəbi:

4. Potensial rəqiblərin inkişafının əngəllənməsi. Bəzi hallarda güclü ölkələrin ciddi inkişaf potensialına malik olan, lakin cari durumu nisbətən zəif olan ölkələrlə inteqrasiyaya girməsinin bir səbəbi də sonuncuları nəzarət altına almaq, onların rəqabət kəsb edə biləcək inkişaflarını əngəlləməkdir.

Beləliklə, beynəlxalq iqtisadi inteqrasiyanın mahiyyəti qurumun yaranmasında bu iki prinsipin təsir gücündən asılıdır. Burada faktiki olaraq təbiiliklə sünilik, intellektlə instinkt, alicənablıqla tərbiyəsizlik arasında seçimdən söhbət gedir. *Dövlətlər tərəfindən tənzimlənən və yönəldilən* yalnız birgə inkişaf prinsipinə əsaslanan və paritet əsaslar üzərində qurulan inteqrasiya qısa bir zamanda böyük nəticələr verə bilir. Odur ki, belə bir modeli **sürətli inteqrasiya** adlandıracayıq.

İqtisadi alyanslar yarananda birgə inkişaf prinsipini əks etdirən məqsədlər elan olunur, rəqiblərin inkişafının əngəllənməsi məqsədləri isə bəyan edilmir. Məsələn, 1986-cı ildə AB-nin yoxsul ölkələrinin mənafelərini qorumaq məqsədilə qəbul edilmiş Vahid Avropa aktı əvvəlki razılaşmalara "iqtisadi və sosial monolitlik" məqsədini əlavə etdi. Burada tədqiqatların təşviqi,

texnologiyaların inkişafı, ətraf mühit və xarici siyasət sahəsində birgə fəaliyyət nəzərdə tutulurdu [2, c. 306].

### *1.2. Regionda İqtisadi İnteqrasiya Perspektivləri*

Yuxarıda şərh olunan nəzəri bazaya əsaslanaraq, hazırda Yaxın Şərq-Cənubi Qafqaz-Mərkəzi Asiya regionunda baş verin mürəkkəb prosesləri tədqiq edək.

Əvvəla onu qeyd edək ki, regionda dərin münasibətlərə əsaslanan heç bir inteqrativ qurum mövcud deyil: Müstəqil Dövlətlər Birliyi MDB), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat (GUAM), İslam Konfransı Təşkilatı (İKT) kimi qurumlar çərçivəsində əməkdaşlıq epizodik və/və ya ümumi xarakter daşıyır. **Beləliklə, cari dövrdə regiondakı ölkələrin hamısına inteqrativ neytrallıq xasdır.**

Faktiki əlaqələrə gəldikdə, **Rusiya-Ermənistan inteqrativ münasibətləri istisna təşkil edir**. Bu ölkələr arasında həm ticarət, həm qarşılıqlı investisiya, həm də əmək və kapital axını, hətta hərbi əməkdaşlıq sahəsində kifayət qədər dərin əlaqələr müşahidə olunur və region dövlətlərinin qəbul etdikləri qərarlarda bu faktın nəzərə alınması zəruridir.

Sözsüz ki, regiondakı hadisələrin, o cümlədən ölkələrarası inteqrasiya proseslərinin hansı istiqamətdə inkişaf etməsi önəmli dərəcədə bir çox, o cümlədən, ABŞ və Rusiya kimi fövqəlbəşər dövlətlərin və AB-nin fəaliyyətindən asılıdır. Təcrübə göstərir ki, **bu dövlətlərin regionla bağlı məqsədləri nəinki region ölkələrinin məqsədləri ilə üst-üstə düşmür, çox hallarda və son nəticədə onlarla ziddiyyət təşkil edir.**

Eyni zamanda Türkiyənin də regionda həlledici rola malik olmasını və mühüm məsələlərdə Azərbaycanla mövqelərinin üst-üstə düşməsini nəzərə alaraq, Türkiyənin müxtəlif siyasət ssenarilərinin araşdırılması məqsədəuyğundur.

Türkiyənin xarici siyasətində AB-yə inteqrasiya cəhdləri xüsusi önəm kəsb edir. Bununla əlaqəli müxtəlif variantları araşdıraq.

1) Türkiyənin AB-yə üzvlük məsələsi uzanır. Bu zaman əgər Türkiyə AB-yə daxil olma səylərində israrlı olarsa, regionda hazırda mövcud olan qeyri-müəyyənlik davam edəcək. Bu halda Azərbaycan və digər türk dövlətlərinin hazırda olduğu kimi gözləmə siyasətinə, yəni inteqrativ neytrallığa davam etməsi çox ehtimallıdır. Lakin unutmaq olmaz ki, bu halda region ölkələrinin, o cümlədən Azərbaycanın seçimində yuxarıda adı çəkilən digər dövlətlərin, xüsusən Rusiya və İranın siyasəti önəmli olacaq. Məsələn, əgər Rusiya Azərbaycana qarşı qərəzli münasibətindən əl çəkib, həm Qarabağ, həm də digər məsələlərdə ədalətli mövqe tutarsa bu, sözsüz ki, Azərbaycan-Rusiya münasibətlərinin dərinləşməsinə gətirib çıxaracaqdır. Eyni fikir azərbaycanlıların əksər hissəsinin yaşadığı İranla münasibətlərə aiddir.

2) Türkiyənin AB-yə daxil olması gerçəkləşir. Bu halda Azərbaycanın da bu quruma daxil olma cəhdlərinin güclənməsini gözləmək olar. Lakin burada başqa variantlar da mümkündür ki, bu da birmənalı olaraq güclü qonşu dövlətlərin davranışından asılıdır.

*Onu da qeyd edək ki, hətta Türkiyə AB-yə üzv olsa belə, bir tərəfdən yaxın perspektivdə onun bu qurumda həlledici rol oynamaq şansı yoxdur, digər tərəfdənsə AB-nin aparıcı ölkələrinin Türkiyəyə münasibətdə inkişafın əngəllənməsi prinsipini rəhbər tutacaqları heç bir şübhə doğurmur.*

Başqa sözlə, bu halda yaxın gələcəkdə Türkiyənin "tənzimlənən inkişafı" haqında danışmaq olar. Bu o deməkdir ki, Türkiyə bir sıra diskriminativ təsirlərlə üzləşəcək, o cümlədən onun ən müasir texnologiyalara yiyələnməsinə maneələr yaradılacaq.

3) Türkiyə region ölkələri ilə inteqrasiyaya üstünlük verir. Bu prosesin pilləli olması ehtimallıdır və ilk inteqrativ münasibətin Azərbaycanla qurulması real görünür. Növbəti mərhələlərdə digər türk və ərəb dövlətlərinin də, İran və Gürcüstan kimi ölkələrin, də bu quruma qoşulması mümkündür. İş burasındadır ki, regionda yerləşən əksər ölkələrin inkişaf səviyyələrində müəyyən yaxınlıq vardır ki, bu da bu onların inteqrasiyası üçün əlverişli amildir. Bu hal region sürətli inteqrasiyası üçün mühüm fundamentdir. Belə bir modelin reallaşma mexanizmlərini araşdıraq.

Yuxarıdakı analizdən göründüyü kimi, tədqiq olunan ölkələr arasında sürətli inteqrasiyanın həyata keçirilməsi üçün ilk növbədə bu dövlətlərin rəhbərliyinin bu addımı atmaq üçün siyasi iradəsi lazımdır. Əgər belə bir qərar qəbul edilərsə, inteqrasiyanın reallaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir.

1. Konkret tarixi elan edilməklə gömrük birliyinin təcili olaraq yaradılması haqqında müqavilə imzalanmalı, elə bu müqavilədə də yenə də konkret tarixi göstərilməklə qısa bir zamanda məhz ümumi bazarın yaradılması qərara alınmalıdır.
2. Növbəti mərhələdə paralel olaraq

- ölkələrin qanunvericilikləri ilk növbədə gömrük ittifaqına, tədricənsə ümumi bazara uyğunlaşdırılması;
- ölkələr arasında gömrük postlarının aradan götürülməsi.
- gömrük ittifaqı prinsiplərinin həyata keçirilməsi üçün digər institusional islahatların həyata keçirilməsi.

Qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyədə hazırda geri qalan, lakin dünya bazarlarında potensial rəqabət qabiliyyətlinə malik olan sahələr vardır ki, onların inkişafı üçün müvəqqəti himayədarlıq siyasəti zəruridir.

1. Ümumi bazarın yaradılması üçün zəruri milli, millətlərarası və dövlətüstü qurumların yaradılması.
2. Rasional alyansdaxili əmək bölgüsünün reallaşdırılması:

- hər bir ölkə üçün perspektiv istehsal sahələrinin müəyyənləşdirilməsi;
- buna uyğun olaraq razılaşdırılmış şəkildə hər bir ölkədə uyğun struktur islahatlarının həyata keçirilməsi, belə ki, keçid dövründə ümumən alyansda məhsulların çatışmazlığına yol verilməsin;

1. Ümumi bazara keçidin reallaşdırılması.
2. Qarşılıqlı investisiyaların təşviqi.
3. Mikrosəviyyədə ölkələrarası üfüqi və şaquli inteqrasiyanın stimullaşdırılması.
4. Razılaşdırılmış daxili və xarici iqtisadi siyasətin həyata keçirilməsi.

Qardaş dövlətlərin münasibətlərində belə bir inteqrasiya ssenarisinin reallaşdırılması nəinki mümkündür, bu həqiqətən də təbiidir və müasir gerçəklikləri nəzərə alsaq, müəyyən mənada zəruri və qarşılıqlı əlverişlidir. Sonrakı mərhələdə bu alyansa, hansı dilin və dini etiqadın hökmran olmasından asılı olmayaraq, regionun digər ölkələri də qoşula bilər. Öz təcavüzkar planlarından və tarixi saxtalaşdırmaq praktikasından əl çəkdiyi halda Ermənistanın da bu alyansda yer almaq imkanları realdır (bir neçə il öncə düşmən olmuş Avropa ölkələri bir ittifaqda birləşdiyi kimi).

Bu yerdə bir vacib məqamı qeyd etmək zəruridir. Azərbaycan-Türkiyə inteqrasiyasından danışılanda bəzən bu ölkələrin bir federativ dövlətdə birləşməsi haqqında fikirlər səslənir. Müasir dövrdə belə təkliflərin meydana çıxmasının iki əsas səbəbi vardır. Bir tərəfdən Azərbaycan və Türkiyə xalqlarının faktiki olaraq vəhdət təşkil etmələri təkzibolunmaz bir reallıqdır. Digər səbəb siyasi-hərbi xarakterlidir və Azərbaycanın təhlükəsizliyinin təmin olunması tələbindən irəli gəlir: əvvəla, Azərbaycan Ermənistan tərəfindən geniş miqyaslı təcavüzə məruz qalmışdır (torpaqlarının 20%-ni itirmişdir) və məlum olduğu kimi düşmən dövlətin təcavüzkar planları bununla bitmir: bütün beynəlxalq hüquq normalarına zidd olaraq Naxçıvana, digər Azərbaycan və Türkiyə torpaqlarına iddialar açıq şəkildə səslənir. Bu səbəblər baxımından vahid dövlət planı cazibədar görünür. Lakin belə təklifləri irəli sürməzdən əvvəl nəzərə almaq lazımdır ki, bu halda Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq qurumlarda bir səs itirilir.

## ƏDƏBİYYAT


1. Огнивцев С.Б. мировая экономика. – М., 2001. – 654 s.
2. Трейси М. Сельское хозяйство и продовольствие в экономике развитых стран. Введение в теорию, практику и политику. – СПб. 1995. – 431 s.


### Summary

## THEORETICAL BASE OF INTERNATIONAL FASTER ECONOMICAL INTEGRATION

***Rovshan GULIEV***
*(Hazar University)*

Irrationality of application of the economical integration model, based on experience of the EU for peripheral countries is justified.

Theoretical justifying of the suggested faster economical integration model and its comparative analyses with other theories ensures its theoretical significance. In the other hand, reality and naturalness of application of the model for countries, having near relations in political, cultural, economical and other aspects, increases its practical value.